# Azərbaycan və türk nağıllarında alma motivi

*(Əvvəli ötən saylarımızda)*

Alma “Bahtiyar” və “Guru kelle” nağıllarında da gəncləşdirici özəlliyi ilə diqqət çəkir. “Bahtiyar” nağılında Bahtiyar, pərilər padşahının balaca qızından, yeyən zaman həmin insanı on beş yaşlı cavan oğlan edən “cənnət alması”nı istəyir. “Guru Kelle” nağılında tutuquşu dilinin altında alma toxumu gətirir və bu toxumu bağban padşahın əmri ilə bağçaya əkir. Alma ağacı yetişir və iki meyvə verir. Bu almalardan birini ilk öncə dustağa verirlər və bu almanı vəzir zəhərlədiyi üçün dustaq ölür. Digərini yeyən bağban isə on beş yaşlı bir gənc olur. “Guru kelle”nin Azərbaycan variantı “Quru kəllə” nağılıdır. Alma yeyərək cavanlaşıb on beş yaşda olmanı, ölüb dirilmənin başqa bir şəkli də hesab eləmək olar. Bu motivə biz “Kəsik baş” nağılında da rast gəlirik. Padşahın bir qu quşu varmış. Bir gün o, bağbanın gözünün qabağında padşahın bağına dimdiyindəki bir alma toxumunu yerə salır. Toxum qəşəng bir alma ağacı olur. Bağban almalardan birini dərib dadının necə olmasına baxır. O, almanı yeyən kimi on beş yaşında bir oğlan olur. Bağban bu almadan nimçəyə düzür və oğluna verir ki, padşaha aparsın. Oğlu almanı aparanda vəzir almaları soruşur və almanı dəyişib zəhərli almaları onların yerinə qoyur. Padşah almanı yemək istəyəndə vəzir hiylə işlədib deyir ki, bu almalardan gözüm su içmir. İlk olaraq başqa adamlara ver yesin sonra özün ye. Bu almadan qara bir qula verir və yeyən kimi ölür. Padşah əsəbləşib uşaqdan bağbanın bu almaları hardan aldığını soruşur. Uşaq cavab verir ki, almanın toxumunu sənin qu quşu gətirib. Padşah qu quşunun boğazını üzüb öldürür. Bağbanı çağırdıb bu zəhərli almanı mənə niə göndərmisən deyir. Bağban deyir ki, bu almaları kim yesə on beş yaşında cavan oğlan olur. Gedib gətirir və padşah almanı yeyib on beş yaşında cavan oğlana dönüşür. Sonra almaların dəyişildiyini bilirlər.

“Yedi kardeşin bacısı” nağılında cadı qadın qızın qanını çəkib onu öldürür. Qardaşları onu dəfn etməyə qıya bilmirlər və həmişə özləri ilə aparırlar. Bəyoğlu dəvənin üstündə ölən qızı görür. Bu qız çox gözəl idi. Bəyoğlunun yanında bir həyat alması var idi. Bu almanı ölən qızın dodaqlarına sürtdükcə qız cana gəlir, dirilir. Qardaşları da qızı Bəyoğluna verirlər. Bu nümunədə almanın ölüləri canlandırmaqda bir vasitə kimi verilməsi, almanın şəfa funksiyasında istifadə edildiyini göstərir. Almanın mifoloji mənşəyini və həyat ağacı ilə əlaqəsini açıqlayan Esma Şimşek almanın müqəddəs sayılan meyvələrdən biri olduğunu və meyvəsi yeyildikdə insana ölümsüzlük bəxş etdiyini bildirir.

Nağıllarımızda bir çox funksiyaları özündə birləşdirən alma motivinə biz “Məlik Məmməd və Məlik Cümşüd” nağılında da rast gəlirik. Bu nağıl “Məlik Məmməd” nağılı ilə eynilik təşkil edir, lakin bir sıra fərqlər də var. Nağılın əvvəlində deyilir ki, bir şəhərdə iki xan arvadı var idi ? Gülzar və Əsli. Heç birinin övladı yox idi. Bir gün həmin şəhərə dərviş gəlir, hər ikisinə bir alma verir. Almaların yarısını xan arvadları, yarısını da ərləri yeyir. Alma yedikdən sonra iki oğlan doğulur - Məlik Məmməd və Məlik Cümşüd. Dərvişin almasını yedikdən sonra övlad əldə etmə Azərbaycan nağılları üçün xasdır. Məşhur rus alimi V.Y.Propp möcüzəli doğuluş motivini tədqiq edərkən yazır ki, “meyvə-bar vasitəsilə hamilə qalmaq bir çox dünya xalqlarının folkloru üçün xasdır. Lakin sehrli alma bunların arasında xüsusi yer tutur. Digər rus və Ukrayna nağıllarında noxuddan da övlad əldə etmə motivləri var. Məsələn, Sumatra adasında yaşayan malayların nağıllarında qadın izdivaca girmədən kokos qozundan, Britaniya Kolumbiyasında kauçuk çeynəməkdən hamilə qalır. Havay adalarında isə rəvayətə görə, bir qız iki banan tapır, düşmənlərdən gizlədərək sinəsinə bərk-bərk basır və ondan hamilə qalır. Hamilə qalmaqdan ötrü müxtəlif meyvə ye-mək adətinə bütün dünyada, fərqli mədəni inkişaf pillələrində olan xalqlarda, bu günədək rast gəlmək olur”. “Məlik Məmməd və Məlik Cümşüd” nağılında nə ənənəvi “biri var idi, biri yox idi” başlanğıcı, nə də ənənəvi “Biz yedik, içdik, dövrə keçdik”, yaxud “göydən üç alma düşdü” sonluğu yoxdur.

Başqa nağıl nümunəsi “Avil-Kasim və Avil-Mamed” adlanır. Nəzərə alsaq ki, bu nağılı qeyri-azərbaycanlı toplamışdır, nağılın “Əbil-Qasım və Əbil-Məmməd” adlandığını güman etməliyik. Bu nağıl müəyyən dərəcədə “Məlik Məmməd”, bir qədər də “Ağ atlı oğlan”la səsləşir. Nağılın əvvəlində övladsızlıq motivi, dərvişin almalarının vasitəsilə övlad əldə etmə motivi var. Lakin şərtə görə oğlanların birini - Əbil-Qasımı dərviş özünə götürür. Dərvişin vilayətində Əbil-Qasım bir otağa girir, orada qızıl fəvvarə vurur. Qanadlı atına minib qızıl fəvvarəyə yaxınlaşanda Əbil-Qasımla at başdan ayağadək qızılla örtülürlər. Bir məqam diqqətimizi cəlb edir: “Qızıl rəngə boyanmış qanadlı at yiyəsindən xahiş edir ki, onu azadlığa buraxsın. Əbil-Qasım elə də edir”.

Əbil-Qasım Şah Mərdanın padşahlığına gəlir, orada mehtərlik edir. Şahın kiçik qızına vurulur. Şah Mərdan xəstələnəndə isə ona sehrli alma tapıb gətirir. Sonra isə bu vilayətə Şah Asaut qoşun yeridir. Əbil-Qasım onun pəhləvanına asanlıqla qalib gəlir. Şah Mərdan artıq qoca idi, taxt-tacını Əbil-Qasıma verir; o isə qocalanda hakimiyyəti böyük oğlu Əzizə tapşırır.

Daha çox nağıllarda görülən alma ataraq özünə ər seçmə ənənəsinə, bəzən də bunun əksi olaraq alma ataraq özünə arvad seçmə kimi rast gəlinir. Alma atmaq və ya göndərmək gənclərin sevgilərini elan etmələri anlamına gəlir. “Ağ atlı oğlan” nağılında sevdiyi oğlana alma atma motivi özünü göstərməkdədir. Qızlar eyvanda otururlar və hərəsinin əlinə bir alma verilir. Onlara tapşırdılar ki, kim hansı oğlanı istəyirsə, almanı o oğlana atsın. Sonra oğlanlar bir-bir gəlib eyvanın qabağından keçməyə başladırlar. Qızlar da istədikləri oğlanlara almanı atdılar. “Şahzadə və qurbağa” nağılında isə alma atma oğlanlar tərəfindən həyata keçirilir. Vəzir hökmdara deyir ki, oğlanların küləfirəngidən baxıb özlərinə qız seçsinlər, kimi xoşlasalar ona bir alma atsınlar, bilək ki, həmin qız kimdi, gedib onu oğuluna alaq. Vəzirin qızı küləfirənginin qabağından keçəndə padaşahın böyük oğlu, vəkilin qızı keçəndə padşahın ortancıl oğlu alma atdı. Padşahın kiçik oğlu alma atanda çaydan bir yekə qurbağa hoppanıb düz yolun üstünə düşdü. Alma gedib qurbağaya dəydi. Hamı məyus oldu. Vəzir, vəkil dedi ki, yəqin səhv gedib, bir də atsın. Kiçik oğul üç dəfə atdı yenə qurbağaya düşdü.

“Oxxay” nağılında Əhməd Oxayın qızı ilə əhd-peyman bağlayır, onun tapşırığı ilə ağ divin almalarının sirrini öyrənməyə gedir. “Oxxay” - razılıq, məmnunluq, “Ox, necə yaxşıdır” köməkçi nitq vasitəsi kimi izah olunur. Həmin nağıl sonralar “Oxxayla Əhməd” adı altında çap edilmişdir. Bir çox maneələri aşan Əhməd qarı nənədən almaların sirrini soruşur, onu öyrənməyə gəldiyini deyir. Qarı gülərək bunu hələ öyrənən olmayıb deyir. Qarı bir qızıl məcməyinin içində üç dənə qızıl alma gətirir. Almalar üçü də bir boyda, bir rəngdə, bir ölçüdə idi. Qarı Əhməddən bu almaların hansının bir illik, hansının iki illik, hansının isə üç illik olduğunu soruşur. Bu sirri məndən başqa heç kim bilmir deyir. Əhməd qarı nənəyə dedi ki, bir qab su gətir, bu saat deyim. Əhməd almaların üçünü də suya salır və deyir ki, qarı nənə suyun dibinə düşən təzədi bir illikdi, ortada olan xeyli qalıb, suyunu çəkib, iki illikdi, lap üstdə qalan alma isə tamam quruyub, bu da üç illikdi. Qarı nənə cildini dəyişib Oxxayın qızı olur və Əhmədə səni sınaqdan keçirirdim deyir. Beləliklə, Əhməd yolda Oxxayın qızının qurduğu maneələri aşır, adamları azad edir, var-dövlətdən isə çəkidə yüngül, qiymətdə ağır nə varsa yığıb nişanlısı ilə birgə atası evinə qayıdır. Orada toy eləyib şadxürrəm yaşayır. Belə ki, ağ devin almalarının sirri onda idi ki, onlardan bir illik olan suyun dibinə batır, iki illik olan suyun ortasında qalır, üç illik olan isə suyun üz nə çıxır. SMOMPK-da çap olunan nağılda oğlanın adı Əhməd yox, Gülməmməddir.

Bəzi nağıllarda alma yeyən şəxs gəncləşməklə yanaşı həm də gözəllik qazanır. Yalovada danışılan “Padişah olan qız” nağılı buna ən gözəl nümunədir. Bədəninin hər yeri tük olan qız padşahın oğlunu ayının pəncəsindən qurtarır və beləliklə, şahzadə onunla evlənmək istəyir. Qız bədəninin hər yerinin tük olduğu üçün evlənmək istəmir. Bunun səbəbini öyrənən bir ixtiyar ona bir alma verir və deyir: “Al bu almanı, ye. Sənin bədənində heç bir tük qalmayacaq”. Almanı yeyən qızın bədənindəki bütün tüklər tökülür və dünya gözəli bir qız olur[8, s 126-132].

Biz nağıllarda alma yeyən şəxsin buynuz çıxartmasına da rast gəlirik. Bu motivi biz “Uçan xalça”, “Fərasətsiz oğul”, “Əhməd” və s. nağıllarda görürük. “Uçan xalça” nağılında Rəvan alma yeyir və həmin anda başında iki zorba buynuz çıxır. Sonra təbibin dedikləri yadına düşür və məhlul hazırlayır. Hazırladığı məhlulu armudun saplağını azca aralayıb tökür və armudu yerir. Beləcə buynuzları yoxa çıxır. “Fərasətsiz oğul” nağılında isə tacirin oğlu əl uzadıb almanın birini üzüb yeyir və yeyən kimi onun başında iki zorba buynuz çıxır. O, əzgil yeyir və buynuzları yoxa çıxır. “Əhməd” nağılında da Əhməd meşədəki meyvələrdən armud, alma yeyə-yeyə gəlib bir bulağa çıxır. Bu bulağın başında bir alma ağacı, bir də armud ağacı var idi. Əhmədin almaya tamahı düşür. Əl atıb almanı yeyən kimi  qoşa buynuzu çıxdı. Bu dərd Əhmədi lap dəli elədi. İki gün burada qaldı. Əhməd lap acımışdı. Alma yeməyə qorxurdu ki, buynuzu dörd olar. O bu dəfə də armud yedi. Bir armud yemişdi ki, buynuzunun biri düşdü, sonra da bir armud da yedi və o biri buynuzu da düşdü.

Alma yeyən şəxsin ayaqlarının göyə qalxması və başının yerə sancılması motivi “Əmir ilə şah qızı” nağılında özünü göstərməkdədir. Əmir cəzirədə gəzirdi. O, çox acımışdı. Bir alma ağacına rast gəldi. Gördü ki, ağacın başında qırmızı almalar var. Əmir əlini uzadıb almaların birini üzüb yedi. Əmirin ayaqları göyə qalxdı, başı isə yerə sancıldı. Əmir bir müddət belə qaldı. Axırda əlləri ilə dirənə-dirənə alma ağacının dibindən bir az o yana getdi və bir armud ağacına rast gəldi. Yerdən bir armud götürüb yeyən kimi ayağı üstə durdu. “Sehrli üzük” nağılında isə alma sağaldıcı funksiya daşıyır. Keçəl meşəni cır meyvə ilə dolu görüb bir az almadan, armuddan, gavalıdan xurcununa doldurur. Bir az keçir acıyır. Əlini atıb bir-iki gavalını götürüb ağzına atdı və elə gavalını yeyib qurtaran kimi təpəsinin ortasından iki buynuz çıxdı. Sonra o, armud yedi. Bu dəfə də gördü ki, elə bil düz-dünya bunun başına hərləndi, kəlləmayallaq yerə dəydi. Nə qədər elədi ki ayağa qalxsın, qalxa bilmədi. Allaha təvəkkül almadan birini yedi. Gördü ki, təzədən anadangəlmə, sappasağ oldu.

Alma motivi ümumiyyətlə, Azərbaycan və Türkiyə xalqlarının epik düşüncəsində əhəmiyyətli yerə sahibdir. Epik düşüncənin ən geniş yayılmış növlərindən olan nağıllar mövzu cəhətdən rəngarəng olmaqla yanaşı, həm də müasir dövrümüz üçün mühüm elmi əhəmiyyətə malikdir. Bu nağıllarda Azərbaycan və Türkiyə xalqının zəngin fantaziyası, yaradıcı xəyalı, bədii təfəkkürü, dünyagörüşü öz əksini tapır. Azərbaycan və Türkiyə nağıllarında almanın digər meyvələrə nisbətən daha çox işlədilməli həm də mifoloji düşüncə ilə əlaqədar olmuşdur. Beləcə də, alma motiv olaraq nağıllarımızın və digər nümunələrimizin başlıca motivlərinə çevrilmiş meyvə olmuşdur.



*Aytac ƏFƏNDİZADƏ,*
***Bakı Dövlət Universiteti,***
***magistrant***